UOT 159.9.

***Günay Nazim qızı Bədəlzadə,***
*fəlsəfə doktoru proqramı üzrə əyani doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# ERKƏN GƏNCLİK YAŞ DÖVRÜNDƏ DAUN SİNDROMLU ŞƏXSLƏRİN CƏMİYYƏTƏ SOSİAL İNTEQRASİYASININ ƏSAS İSTİQAMƏTLƏRİ

***Гюнай Назим гызы Беделзаде,***
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СОЦИАЛЬНОЙ ИНТЕГРАЦИИ В ОБЩЕСТВО ЛИЦ С СИНДРОМОМ ДАУНА В ПЕРИОД РАННЕЙ ЮНОСТИ

***Gunay Nazim Badalzade,***
*doctorial student in the proqramme of a Ph.D*
*Institute of Education of the Republic of Azerbaijan*

# MAİN FEATURES OF SOCİAL İNTEGRATİON İN SOCİETY OF THE PEOPLE WITH DOWN SYNDROME İN EARLY AGE OF YOUTH

**Xülasə:** Hal-hazırda cəmiyyətimizin inklüzivləşdiyi bir dövrdə əsas məsələlərdən biri də Daun sindromlu şəxslərin cəmiyyətə sosial inteqrasiyasıdır. Bu istiqamətdə olan problemləri nəzərə alaraq, məqalədə erkən gənclik yaş dövründə Daun sindromlu şəxslərin cəmiyyətə sosial inteqrasiya məslələrini araşdırmışıq. Araşdırma zamanı bu istiqamətdə olan xarici ölkələrin təcrübələrini da təhlil edərək müəyyən nəticələr vermişik.
***Açar sözlər:*** *Daun sindromu, erkən gənclik yaş dövrü, sosial inteqrasiya, cəmiyyətə inteqrasiya, sosial bacarıqlar, peşə fəaliyyəti*

**Резюме:** В настоящее время, в период инклюзации нашего общества одной из важнейших проблем является социальная интеграция в общество лиц с синдромом Дауна. Учитывая проблемы, существующие в этом направлении, в этой статье мы исследовали вопросы социальной интеграции в обществе лиц с синдромом Дауна в раннем юном возрасте. При исследовании, мы проанализировали опыт зарубежных стран в данном направлении и сделали определённые выводы.
***Ключевые слова***: *Синдром Дауна, ранний юный возраст, социальная интеграция, интеграции в общество, социальные навыки, профессиональная деятельность*

**Summary:** Currently, in the period of inclusion of our society, one of the most important problems is social integration in the society of people with Down syndrome. Considering the problems existing in this direction, in this article we investigated the issues of social integration in the society of people with Down syndrome at an early young age. In the study, we analyzed the practices of foreign countries in this direction, made certain conclusions.
***Key words:*** *Down syndrome, early youth age, social integration, community integration, social skills, professional activity*

Cəmiyyət birbaşa əlaqəli sistem kimi fəaliyyət göstərən qruplar, təşkilatlar, qurumların quruluşları, kollektivliklər və ekoloji qurumlar qrupudur. Cəmiyyətdə birləşən və ümumi funksional quruluşu meydana gətirən birləşmə sistemlərində şəxslər bir-birinə bağlıdır və bir-birindən asılıdır. Lakin cəmiyyətin struktur bölmələri bir-biri ilə əlaqəli və bir-birindən asılı olduqlarına baxmayaraq, onlar davamlı bir təşkilat təşkil edirlər. Merton deyir ki, hər cəmiyyətdə, "anomiyaya doğru bir zorakılıq mövcuddur. Müasir cəmiyyətimiz inkişaf etdikcə, buradakı

qaydalar da dövrün tələbatlarına uyğun olaraq formalaşır. Artıq əlilliyi olan şəxslərin hüquqları getdikcə artır və cəmiyyətə sosial inteqrasiyası sürətlənir.

Əvvəlki dövrlərə nisbətən hal-hazırda Daun sindromlu şəxslərin cəmiyyətə sosial inteqrasiya olunması üçün bir çox imkanlar yaradılmışdır.

Bu günkü gündə, Daun sindromlu şəxslərin əksəriyyəti normal insanlar kimi ömür sürmələrinə baxmayaraq, digər yaşıdları kimi onların sosial şəraiti ilə bağlı məlumatlar məhduddur. Dünyanın bir çox sağlamlıq vəziyyətinə görə inkişaf etmiş ölkələrində Daun sindromlu şəxslərin əksəriyyəti yaşlılıq dövrünə kimi gəlib çatır. Bu o deməkdir ki, Daun sindromlu şəxslər yaşadığı cəmiyyətdən təcrid saxlanıla bilməz. Müasir təhsil sistemi inkişaf etdikcə xüsusi qayğıya ehtiyacı olan şəxslər, o cümlədən Daun sindromlu şəxslər üçün yeni layihələr işlənib hazırlanır. Bununla belə qarşıda inteqrasiya ilə bağlı bir çox problemlərin həlli məsələləri araşdırılır. Ən əsas araşdırılması vacib olan məsələlərdən biri Daun sindromlu gənclərin məktəbdən sonra hansı peşəyə sahib olacaqları problemidir.

Son onilliklərdə intellektual əlilliyi olan, o cümlədən də Daun sindromlu uşaqlar üçün erkən inkişaf proqramlarının inkişaf etdirilməsi diqqət mərkəzindədir. Bu diqqət artıq böyüklərin ehtiyaclarına doğru dəyişir: uyğun bir işdə işləmək, mənzilə sahib olmaq, tam hüquqlu istirahət üçün imkanlar əldə etmək və cəmiyyətdəki normal fəaliyyət və digər ehtiyaclar. Daun sindromu problemi ilə məşğul olan mütəxəssislər arasında əsas fikir budur ki, Daun sindromlu şəxslərin "gənclik həyatı" üçün bir gəncin hazırlanmasına erkən başlanmalıdır - orta məktəbdə, yəni, 14 yaşından. Bu mövzuda məktəb və məktəbdənkənar müxtəlif təşkilatlara, eləcə də valideynlər ilə qarşılıqlı əlaqələrin qurulmasına böyük rol verilir. Bunlar peşə təhsil mərkəzləri sosial təhsil mərkəzləri və müxtəlif bacarıqlara aid peşə ixtisasları ola bilər. Dünyanın çox ölkələrində Daun sindromlu gənclərin cəmiyyətə inteqrasiyası istiqamətləri ABŞ-da hazırlanmış proqramlara uyğunlaşdırılır və istifadə olunur. Ona görə ki, Daun sindromlu gənclərin və böyüklərin həyatının təşkili üçün əsas meyilləri və yanaşmaları nəzərdən keçirmək üçün Amerika təcrübəsinə müraciət etmək məqsədə uyğundur. Birləşmiş Ştatların bir çox dövlətlərində xüsusi təşkilatlar var. Misal olaraq göstərə bilərik: xüsusi olan yeniyetmələrin məktəb həyatından yetkin həyatına olan ehtiyac keçid planlaşdırma komitələri və ailələrlə qarşılıqlı əlaqələrin qurulması komitələri. Xarici tədqiqatlarda keçid prosesi, demək olar ki, inteqrasiya prosesində vacib bir yer tutur. Bu zaman əsas diqqət valideynlərin, bu sahə üzrə mütəxəssislərin, Daun sindromlu gənclərin yaşıdlarının, məktəbdəki əhatəsinin birlikdə işləməsinə yönəldilməlidir. Daun sindromlu şəxslərin həyat dövrünün müxtəlif mərhələlərində ailə təhsilinin kontekstində, məktəbəqədər və məktəb təhsilinin təşkili, yetkinlik dövründə məşğulluq və özünütəsdiqləmə kimi həyat keyfiyyəti ilə təmin olunmasının problemi onların cəmiyyətə sosial inteqrasiyası ilə birbaşa əlaqəlidir. Daun sindromlu gənclərin cəmiyyətə inteqrasiyası üçün əsas istiqamətlər bunlardır: onların şəxsiyyətyönlü inkişafı üçün layihələrin hazırlanması, onların təkcə ailə üzvləri ilə deyil, həmçinin cəmiyyətə inteqrasiyasını təşkil etmək, ictimai həyatda fəal iştiraklarını təşkil etmək, onları yaradıcılıq qabiliyyətlərinin aşkar olunmasına imkanlar yaratmaq, istirahət və əyləncə vaxtlarının səmərəli keçirilməsinin təşkili, bilik və bacarıqlarına uyğun peşəyə yönəltmək və bu kimi digər məsələlər.

Araşdırmalar göstərir ki, öyrənmə çətinlikləri olan bir adamın yetkin müvəffəqiyyəti onun akademik bacarığından deyil, əsasən, sosial-emosional əlaqələrindən asılıdır. Daun sindromlu gənclər üçün bəzi sosial bacarıqlara yiyələnmək çətindir. Məsələn:

-Bir qrupa qoşulmaq və ya daxil olmaq bacarığının məhdudluğu.

-Münasibətlər yaratmaq və saxlamaq bacarığının məhdudluğu.

-Münaqişələrin həlli qabiliyyətinin məhdudluğu.

-Sosial bacarıqlara "uyğunlaşma" imkanının məhdudluğu.

Öyrənmə çətinliyi olan bir gənc üçün sosial olaraq qəbul edilmə aşağıdakı hallarda çatışmazlıqlar müşahidə olunduqda əngəllənir:

-Koqnitiv qabiliyyətlər - bunlar çox fərqlidir

- Dil məzmunu, tonu

-Nitq anlamanın olması

- Bədən dili

- Həmyaşıdları ilə anlaşma

- Ətraf mühitə uyğunlaşma

Bütün bunları nəzərə alaraq erkən gənclik dövründə Daun sindromlu şəxslərin cəmiyyətə sosial inteqrasiya prosesini daha səmərəli və faydalı istiqamətə yönəldə bilərik. Bunun üçün valideynlərdən, mütəxəssislərdən və ən əsası, cəmiyyətdən böyük əzmkarlıq tələb olunur.

**Problemin elmi yeniliyi:** Erkən gənclik yaş dövründə Daun sindromlu şəxslərin cəmiyyətə sosial inteqrasiyası məsələlərinin xarici təcrübə ilə təhlil olunması və əsas istiqamətlərin müəyyən edilməsi məqalədə əksini tapmışdır.

**Problemin praktik əhəmiyyəti:** Daun sindromlu şəxslərin cəmiyyətə inteqrasiyası məsələləri bu sahədə çalışan mütəxəssisləri, tələbələri və Daun sindromlu övladı olan valideynləri çox maraqlandırır. Məqalə praktik cəhətdən mütəxəssislərə, valideynlərə faydalı olacaqdır.

**Problemin aktuallığı:** Sosial inteqrasiya, əlil insanların hüquqlarının müdafiəsi, onların cəmiyyətdən təcrid olunmaması hal-hazırda cəmiyyətin diqqət mərkəzindədir. Bu baxımdan məqalə aktualdır.

**Ədəbiyyat:**

1. Adolescents with Down syndrome: Toward a more fulfilling life. By Siegfried Pueschel & Marie Sustrova (1997).
2. The adolescent with Down syndrome – Life for the teenager and for the family. By Sue Buckley and Ben Sacks (1987)
3. Uditsk, B.From integration to İnclusion: The Canadian Experience (1983)
4. Журнал «Синдром Дауна. XXI век» 2008, №1

**E-mail:** gunaybedelzade@mail.ru
**Rəyçilər :** *ped. ü. fəls.dok., dos.* N.T. Hüseynova
*ped. ü. fəls.dok., dos.*S. R.Aslanova
**Redaksiyaya daxil olub:**02.12.2018.